"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin

2021-ci il üzrə

# YARIMİLLİK İDARƏETMƏ HESABATI

1. **Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi;**

   - "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti / "AzerGold" QSC / VÖEN:1403467421/ Qeydiyyata alındığı tarix 05.07.2016

2. **Emitentin hüquqi ünvanı və olduğu yer;**

   - **Hüquqi ünvan:** AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov, ev 84
   - **Olduğu yer:** Bakı şəhəri, Mikayıl Müşfiq küç., 2H

3. **Emitentin adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları;**

   - Hesabat dövrü ərzində "AzerGold" QSC-yə münasibətdə sadalanan hallar mövcud olmamışdır.

4. **Emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar;**

   - Hesabat dövrü ərzində "AzerGold" QSC-nin hər hansı yaranmış yə və ləğv edilmiş filialları və nümayəndəlikləri olmamışdır.

5. **Emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;**

- **"AZERBLAST" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC)**
  - Hüquqi ünvanı: AZ1623, Daşkəsən rayonu, Çovdar, ev Çovdar Filiz emalı Sahəsi
  - Qeydiyyat haqqında məlumatlar: Qeydiyyata alındığı tarix: 09.03.2021, dövlət qeydiyyat nömrəsi: VÖEN 4900451501)
  - Nizamnamə kapitalında emitentin payı: "AzerGold" QSC- 51%

**6. Emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı;**

- "AzerGold" QSC şirkətlər qrupunun bir hissəsi deyil.

**7. Emitentin məşğul olduğu fəaliyyət istiqamətləri;**

1. Faydalı qazıntı ehtiyatlarının dövlət balansına qəbul edilmiş əlvan və qara metal filizi yataqlarının öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənməsi və idarə olunması;
2. Faydalı qazıntı ehtiyatlarının dövlət balansında qeydiyyata və uçota alınmış tərkibində əlvan və qara metal filizi olan kommersiya əhəmiyyətli filizin hasilatı, daşınması, emalı və satışı;
3. Yeni texnologiyaları, texniki vasitələri tətbiq etməklə yüksəkkeyfiyyətli əlvan və qara, o cümlədən nəcib metalların istehsalı, emalı, onlardan müasir tələblərə cavab verən rəqabətədavamlı məhsulların istehsalı və belə məhsulların satışı;
4. Cəmiyyətin fəaliyyətində yeni texnologiyaların tətbiqi, texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə edilməsi, beynəlxalq standartların tələblərinə uyğun məhsul istehsalı güclərinin formalaşdırılması;
5. Cəmiyyətin fəaliyyətinin inkişaf etdirilməsi, effektliliyinin və etibarlılığının yüksəldilməsini təmin etmək üçün investisiyaların cəlb edilməsi üzrə fəaliyyətin həyata keçirilməsi;
6. Cəmiyyətin qurğu və avadanlıqlarının texniki təhlükəsizliyinin, həmçinin istehsalatın fəaliyyətini təmin edən proqram və texniki vasitələrin təhlükəsizliyinin təmin olunması üçün tədbirlərin görülməsi;
7. Cəmiyyətin, onun törəmə cəmiyyətlərinin, habelə idarə, filial və nümayəndəliklərinin iqtisadi və maliyyə vəziyyətinin təhlili və onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə tədbirlər görülməsi;
8. Cəmiyyətin işçilərinin sosial müdafiəsinin və əmək şəraitinin yaxşılaşdırılması, əməyin mühafizəsi tədbirlərinin həyata keçirilməsi;
9. Cəmiyyətə aid olan məsələlər üzrə islahatların aparılmasına dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi;
10. Müvafiq hüquqi aktlarda Cəmiyyətə münasibətdə nəzərdə tutulmuş tapşırıqların yerinə yetirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi;
11. Müasir informasiya texnologiyalarının və proqram təminatının tətbiqi vasitəsilə Cəmiyyətin fəaliyyətinin səmərəliliyinin artırılması;

12. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada malların (işlərin və xidmətlərin) satın alınması və müqavilələrin bağlanılması;
13. Aidiyyəti üzrə dövlət sirrinin və məxfilik rejiminin qorunmasının təmin edilməsi və ona riayət edilməsinə nəzarət olunması;
14. Cəmiyyətdə yeni texnologiyaları, texniki vasitələri tətbiq etməklə ətraf mühitə təsirin minimuma endirilməsi, ətraf mühitin qorunması və bərpasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;
15. Fəaliyyət istiqamətlərinə uyğun sahələrdə kadrlarla işin təşkili və aparılması, personalın bilik səviyyəsinin (o cümlədən, texniki istismar və yanğın təhlükəsizliyi qaydaları sahəsində) yoxlanılması;
16. Fəaliyyət istiqamətlərinə uyğun sahələrdə elmi-tədqiqat və təcrübə konstruktor işlərinin, innovasiya layihələrinin, marketinq araşdırmalarının, elmi nailiyyətlərin tətbiq edilməsi və rəqabətədavamlı məhsul istehsalının inkişafına xidmət edən digər tədbirlərin həyata keçirilməsi;
17. Cəmiyyətin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə qanunla müəyyən olunmuş qaydada və müddətdə baxılması;
18. Cəmiyyətin sərəncamında olan əmlakın qorunmasının və ondan səmərəli istifadə olunmasının təmin edilməsi;
19. Fəaliyyət istiqamətlərinə uyğun sahələrin inkişafına dair istehsal, elmi-texniki, iqtisadi və sosial proqramların işlənilib hazırlanması, onların icrasının təmin edilməsi;
20. Fəaliyyət istiqamətlərinə uyğun sahələrdə dövlət orqanları, hüquqi və fiziki şəxslər, o cümlədən xarici dövlətlərin müvafiq qurumları, hüquqi və fiziki şəxsləri ilə əməkdaşlığın həyata keçirilməsi;
21. Fəaliyyət istiqamətlərinə uyğun sahələrdə müxtəlif sərgilərin, təqdimatların, treninqlərin və seminarların keçirilməsi.

8. **Emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri;**

- Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş 23.11.2021-ci il tarixli təhlükəli yüklərin nəqliyyat vasitəsilə daşınmasına dair Lisenziya-müddətsiz.
- Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən 29.03.2017-ci il tarixli qızılın və digər qiymətli metalların hasilatı və emalı vasitələrinin dövriyyəsinə dair İcazə-müddətsiz
- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi tərəfindən verilmiş 25.01.2021-ci il tarixli mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsi üçün Xüsusi İcazə-müddətsiz
- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilmiş 05.12.2016-cı il tarixli 5 (beş) il müddətinə "Çovdar" qızıl yatağında qızılı filizi hasilatı məqsədi ilə verilmiş dağ-mədən ayırması Aktı.

- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilmiş 07.09.2020-cı il tarixli 2 (iki) il müddətinə "Ağyoxuş" qızıl yatağında qızılı hasilatı məqsədi ilə verilmiş dağ-mədən ayırması Aktı.
- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən verilmiş 09.10.2017-cı il tarixli 5 (beş) il müddətinə "Çənlibel" kaolin yatağında kaolin gili hasilatı məqsədi ilə verilmiş dağ-mədən ayırması Aktı.

**9. Emitentin təklif etdiyi məhsullar və xidmətlər;**

- Qızıl külçə satışı
- Gümüş külçə satışı
- Pərakəndə şəkildə qızıl və gümüş sikkələri satışı **(Heydər Əliyev Mərkəz – 5,10,20 qr, Çələbi – 5,10,20 qr, Qobustan – 5,10, 20 qr).**

**10. Emitentin işçilərinin sayı və onun rüblük dinamikası;**

31.12.2020 – 415 nəfər
31.03.2021 – 449 nəfər
30.06.2021 – 470 nəfər

**11. Emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı;**

- **Müşahidə Şurası:** Sədr: Nəcəf Rövşən Çingiz oğlu, üzvləri: Pənahov İlham Abbas oğlu, Qurbanov Samir Mansur oğlu, Məcidli Vüqar Sabir oğlu, Ağakişiyev Elçin Nadir oğlu.
- **İdarə Heyəti:** İdarə Heyətinin sədri – Zakir Zaur oğlu İbrahimov, İdarə Heyətinin üzvü – sədrin müavini - Oqtay Xanlar oğlu Məmmədov, İdarə Heyətinin üzvü – sədrin müavini - Xəyyam Oqtay oğlu Fərzəliyev, İdarə Heyətinin üzvü – sədrin müşaviri - Orxan Nazim oğlu Novruzov.

**12. Emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı;**

- Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

**13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı,**

**olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı;**

- Cəmiyyətin bütün səhmləri dövlətə məxsusdur.

**14. Nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı);**

- **"AZERBLAST" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC)**
- ➢ Hüquqi ünvanı: AZ1623, Daşkəsən rayonu, Çovdar, ev Çovdar Filiz emalı Sahəsi
- ➢ Qeydiyyat haqqında məlumatlar: 09.03.2021(VÖEN 4900451501)
- ➢ Nizamnamə kapitalında pay: "AzerGold" QSC- 51%

- **"DAŞKƏSƏN DƏMİR FİLİZ" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC)**
- ➢ Hüquqi ünvanı: AZ1600, Daşkəsən rayonu, İ.Qayıbov, ev 1
- ➢ Qeydiyyat haqqında məlumatlar: 14.12.2020(VÖEN 4900437551)
- ➢ Nizamnamə kapitalında pay: "AzerGold" QSC- 1 pay (100%)

**15. Emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat:**

- yığıncağın keçirilmə tarixi və yeri (ünvan);
- ümumi yığıncaqda qəbul edilmiş qərarlar.

Hesabat dövrü ərzində səhmdarların ümumi yığıncağının iclası çağırılmamışdır.

**17. Emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:**

- əqdin məbləği;
- hesabat tarixinə əqdin ödənilməmiş hissəsi.

Müvafiq dövr ərzində emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqd olmamışdır.

**18. Emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:**

- bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;

- aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi.

Müvafiq dövr ərzində emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqd olmamışdır.

**20. Hesabatın açıqlanma mənbəyi haqqında məlumat**

Hələlik mövcud deyildir.

"AzerGold" QSC-nin

İdarə Heyətinin sədrinin

v.m.i.e. Oqtay Məmmədov

Baş mühasib Abdulla Babayev

AzerGold

## KAPİTALIN STRUKTURU

*30.06.2021* *(min manatla)*

| | Səhm kapitalı | Təsisçilərlə hesablaşmalar | Bölüşdürülməmiş mənfəət | Total Kapital |
|---|---|---|---|---|
| | | | | |
| **Yanvar 1, 2018** | 2,204 | 0 | -160 | 2,044 |
| | 0 | 0 | 0 | 0 |
| **İllik ümumi məcmu gəlir** | - | 0 | 13,670 | 13,670 |
| | 0 | 0 | 0 | 0 |
| **Dekabr 31, 2018** | 2,204 | 0 | 13,510 | 15,714 |
| | 0 | 0 | 0 | 0 |
| **Səhm kapitalında olan artım** | 10,000 | 0 | - | 10,000 |
| **İllik ümumi məcmu gəlir** | - | 0 | 21,158 | 21,158 |
| | 0 | 0 | 0 | 0 |
| **Dekabr 31, 2019** | 12,204 | 0 | 34,668 | 46,872 |
| | 0 | 0 | 0 | 0 |
| **Səhm kapitalında olan artım** | 24,796 | 0 | 0 | 24,796 |
| **Təsisçilərlə hesablaşmalar üzrə artım** | 0 | 13,204 | 0 | 13,204 |
| **İllik ümumi məcmu gəlir** | 0 | 0 | 81,957 | 81,957 |
| | 0 | 0 | 0 | 0 |
| **Dekabr 31, 2020** | 37,000 | 13,204 | 116,625 | 166,829 |
| | 0 | 0 | 0 | 0 |
| **Səhm kapitalında olan artım** | 25,000 | 0 | 0 | 25,000 |
| **Təsisçilərlə hesablaşmalar üzrə artım** | 0 | 5,000 | 0 | 5,000 |
| **İllik ümumi məcmu gəlir** | 0 | 0 | 6,668 | 6,668 |
| | 0 | 0 | 0 | 0 |
| **İyun 30, 2021** | 62,000 | 18,204 | 123,293 | 203,497 |

"AzerGold" QSC-nin

İdarə Heyətinin sədrinin

v.m.i.e. Oqtay Məmmədov

Baş mühasib Abdulla Babayev

AzerGold

# MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

30.06.2021 *(min manatla)*

| | Cari il (1-ci yarımillik) | 2020-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| Əsas vəsaitlər | 29,959 | 36,057 |
| Kapitallaşdırılmalı olan geoloji kəşfiyyat işləri | 48,726 | 37,665 |
| Qeyri-maddi aktivlər | 76,272 | 76,254 |
| Əsas vəsait alışı üçün verilmiş avanslar | 7,288 | 4,908 |
| Təxirə salınmı vergi aktivi | 1,603 | 1,603 |
| Aktivlərdən istifadə hüququ | 2,812 | 2,812 |
| **Cəmi uzunmüddətli aktivlər** | **166,659** | **159,299** |
| **CARİ AKTİVLƏR** | | |
| Pul və pul ekvivalentləri vəsaitləri | 54,416 | 54,569 |
| Verilmiş avanslar | 12,172 | 10,597 |
| Debitor borcları və digər alacaqlar | 0 | 0 |
| Materiallar | 11,626 | 10,592 |
| Digər cari aktivlər | 21,129 | 2,738 |
| **Cəmi cari aktivlər** | **99,344** | **78,495** |
| **CƏMİ AKTİVLƏR** | **266,003** | **237,793** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | |
| **UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| Ətraf mühitin bərpası öhdəliyi (ARO) | 10,998 | 10,998 |
| Uzunmüddətli lizinq | 2,034 | 2,034 |
| Uzunmüddətli bank kreditləri | 34,730 | 34,730 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **47,762** | **47,762** |
| **CARİ ÖHDƏLİKLƏR** | | |
| Kreditor borcları və digər öhdəliklər | 4,584 | 13,411 |
| Cari mənfəət vergisi öhdəliyi | 0 | 8,078 |
| Qısamüddətli lizinq | 985 | 985 |
| Digər cari öhdəliklər | 9,176 | 728 |
| **Cəmi cari öhdəliklər** | **14,745** | **23,202** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **62,507** | **70,964** |
| **SƏHMDAR KAPİTALI** | | |
| Nizamnamə kapitalı | 62,000 | 37,000 |
| Əlavə kapital qoyuluşu | 18,204 | 13,204 |
| Bölüşdürülməmiş mənfəət/(ödənilməmiş zərər) | 123,293 | 116,625 |
| **Cəmi kapital** | **203,497** | **166,829** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ SƏHMDAR KAPİTALI** | **266,003** | **237,793** |

"AzerGold" QSC-nin

İdarə Heyətinin sədrinin

v.m.i.e. Oqtay Məmmədov

Baş mühasib Abdulla Babayev

AzerGold

# Mənfəət və zərər haqqında hesabat

*30.06.2021* *(min manatla)*

| | Cari il (1-ci yarımillik) | 2020-ci il |
|---|---|---|
| **Satışdan gəlir** | 80,711 | 187,347 |
| **Əməliyyat xərcləri** | -51,588 | -62,388 |
| | | |
| **Ümumi mənfəət** | 29,123 | 124,958 |
| | | |
| Ümumi və inzibati xərclər | -6,612 | -14,870 |
| Kəşfiyyat hüquqlarının dəyərsizləşməsi | 0 | -10,724 |
| Dəyərsizləşmə itkisi | 0 | 3,111 |
| Digər əməliyyat xərcləri | -305 | -35 |
| Digər xərclər | 0 | -1,931 |
| Digər gəlirlər | 142 | 1,190 |
| | | |
| **ƏMƏLİYYAT MƏNFƏƏTİ** | 22,348 | 101,698 |
| | | |
| **Faiz xərcləri** | -680 | -3,429 |
| | | |
| **Mənfəət vergisindən öncəki xalis mənfəət** | 21,668 | 98,270 |
| | | |
| **Mənfəət vergisi xərci** | 0 | -16,313 |
| | | |
| **XALİS MƏNFƏƏT** | 21,668 | 81,957 |

"AzerGold" QSC-nin

İdarə Heyətinin sədrinin

v.m.i.e. Oqtay Məmmədov

Baş mühasib Abdulla Babayev

AzerGold

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*30.06.2021* *(min manatla)*

| | Cari il (1-ci yarımillik) | 2020-ci il |
|---|---|---|
| **Gəlir vergisindən əvvəl mənfəət/zərər** | **6,668** | **98,270** |
| Faiz xərci | 680 | 2,996 |
| Uzun müddətli aktivlərin amortizasiyası | 20,400 | 10,499 |
| Aktivlərdən istifadə hüququnun amortizasiyası | 0 | 984 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 0 | 4,371 |
| Kəşfiyyat hüquqlarının dəyərsizləşməsi | 0 | 10,724 |
| Qeyri-maddi aktivlərin dəyərsizləşməsi | 0 | 18,899 |
| əvvəlki dəyərsizləşdirilmiş kəşfiyyat hüquqlarının geri qaytarılması | 0 | -22,008 |
| Bərpaetmə ehtiyyatı üzrə faizin dəyişməsi | 0 | 433 |
| Xalis xarici valyuta üzrə mənfəət / zərər | 0 | 35 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **27,748** | **125,202** |
| Debitor borclarında olan artıb/azalmalar | 0 | 17 |
| Digər qısa-müddətli aktivlərin artıb/azalması | -18,392 | -9,557 |
| İnventarlarda olan artma/azalma | -1,034 | 2,667 |
| Qısa-müddətli avanslarda artma/azalma | -1,576 | -8,378 |
| Kreditor borcları üzrə artma azalma | -8,827 | 9,145 |
| Digər qısa-müddətli borcların artıb/azalması | 370 | 8,242 |
| **Əməliyyatlar üzrə ümumiləşdirilmiş xərclər** | **-1,711** | **127,338** |
| **Ödənilmiş mənfəət vergisi vergisi** | **0** | **-1,999** |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **-1,711** | **125,339** |
| **İnvestisiya fəaliyyətlərindən yaranan pul axını** | | |
| Tikili və avadanlıqlar və mədənlərin işlənilməsi üzrə məsrəflər | -16,682 | -16,104 |
| Kəşfiyyat və qiymətləndirmə aktivləri üzrə investisiyalar | -11,061 | -28,033 |
| Sair qeyri-maddi aktivlər üzrə investisiyalar | -17 | -194 |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **-27,761** | **-44,331** |
| **Maliyyə fəaliyyətindən yaranan pul axınları** | | |
| Səhmin emissiyasından daxil olmalar | 25,000 | 24,796 |
| Əlavə kapital qoyuluşu üzrə daxilolmalar | 5,000 | 13,204 |
| Borcun alınmasından daxilolmalar | 0 | 44,812 |
| İcarə öhdəliklərinin ödənilməsi | 0 | -984 |
| Kreditlər və borc vəsaitlərinin ödənilməsi | 0 | -133,314 |
| Ödənilmiş faiz | -680 | -4,049 |
| **Maliyyə fəaliyyətində istifadə olunmuş xalis pul axınları** | **29,320** | **-55,536** |
| **Nağd pul üzrə xalis artma /azalma** | **-152** | **25,472** |
| **Nağd və nağd pul ekvivalentləri, ilin əvvəlinə** | **54,569** | **29,133** |
| **Nağd və nağd pul ekvivalentləri üzrə dəyişən faizlərin təsiri** | **0** | **-37** |
| **Nağd və nağd pul ekvivalentləri, ilin sonuna** | **54,417** | **54,568** |

**"AzerGold" QSC-nin**

**İdarə Heyətinin sədrinin**

**v.m.i.e.** **Oqtay Məmmədov**

**Baş mühasib** **Abdulla Babayev**